# MƏHƏBBƏT MİRZƏLİYEVA – 70



Saflıq, əməksevərlik, fədakarlıq rəmzi, ədalətsizliyə, haqsızlığa barışmaz münasibət bəsləyən, elmimizin taleyi üçün daim narahat ömür yaşayan, elmimizin məsuliyyətini zərif çiyinlərində şərəflə daşımağı bacaran, ömrünün mənasını Azərbaycan elminin inkişafına, millətinə, cəmiyyətə təmənnasız xidmətdə görən, insanların hüsn-rəğbətini qazanan “Türkologiya” jurnalının redaksiya heyətinin üzvü, görkəmli şəxsiyyət, parlaq türkoloji fəaliyyəti ilə seçilən yaradıcı alim, unudulmaz insan Məhəbbət Mirzəliyevanın 70 yaşı tamam olur.

Məhəbbət Mirzəliyeva 17 oktyabr 1949-cu ildə Bakıda anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsinə daxil olmuşdur. 1971-1972-ci tədris ilində ali təhsili başa vurduqdan sonra təyinatla Quba şəhər internat məktəbində tərbiyəçi-müəllim vəzifəsində işləmişdir.

1972-ci ildə Azərbaycan SSR EA Nəsimi adına Dilçilik İnstitutunun aspiranturasına daxil olmuşdur. 1976-cı ildə “Müasir Azərbaycan dilində feil kateqoriyası” mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, 1975-1981-ci illərdə institutun Türk dilləri şöbəsində kiçik elmi işçi, 1981-1993-cü illərdə böyük elmi işçi vəzifələrində çalışmışdır.

1993-1996-cı illərdə M.Mirzəliyeva Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının Humanitar siyasət şöbəsində məsləhətçi işləmişdir. 1996-2001-ci illərdə AAK-nın Humanitar və ictimai elmlər şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1996-cı ildə “Türk dilləri frazeologiyasının nəzəri problemləri” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Əsərin 2009-cu ildə “Türk dillərinin frazeologiyası” adı ilə nəşr olunması elm aləmində yenidən böyük əks-səda doğurmuşdur.

2002-ci ilin yanvar ayından M.Mirzəliyeva AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin müdiri vəzifəsində fəaliyyət göstərmişdir. Burada xüsusi qeyd etməliyik ki, Məhəbbət xanımın rəhbərliyi ilə durğunluq dövrünü keçirən şöbə dirçəlmiş, elmi fəaliyyəti ilə respublikada, eləcə də onun hüdudlarından kənarlarda tanınmışdır.

M.Mirzəliyevanın elmi rəhbərliyi altında 14 nəfər filologiya elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır.

2002-ci ildən özünün qurduğu Bakı Dilçilik Məktəbinə rəhbərlik etmişdir. Bakı Slavyan Universitetinin Elmi və AMEA Nəsimi adına Dilçilik İnstitutunun Müdafiə şuralarının üzvü olmuşdur. 2010-cu ildə Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının dilçilik problemləri üzrə elmi katibi vəzifəsinə təyin olunmuşdur.

Elmi fəaliyyəti ilə paralel 1991-1993-cü illərdə Məhəbbət Mirzəliyeva Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda, 1996-2000-ci illərdə isə Azərbaycan Xarici Dillər Universitetində pedaqoji fəaliyyətlə məşğul olmuşdur.

Yeri gəlmişkən, ciddi, obyektiv, prinsipial alim, gözəl qələm sahibi Məhəbbət xanımın 1998-ci ildən ömrünün sonuna kimi "Tədqiqlər" toplusunun baş redaktoru kimi fəaliyyətini də xüsusi qeyd etməliyik. Hətta 1996-2001-ci illərdə AAK-nın Humanitar və ictimai elmlər şöbəsinin müdiri vəzifəsində çalışmasına baxmayaraq, gərgin zəhmət, məsuliyyət tələb edən "Tədqiqlər"-in nəşrə hazırlanması ilə də məşğul olurdu.

Məhəbbət Mirzəliyeva bir tələbənin müəllliminə sonsuz rəğbət və sədaqətinin misilsiz nümunəsini göstərərək müəllimi Vaqif Aslanovun sağlığında belə işıq üzü görməyən (doktorluq dissertasiyası, elmi məqalələri, məruzə və çıxışları və s.) dəyərli türkoloji irsini axtarıb tapmış, nəşr etdirərək türkologiya dünyasına təqdim etmişdir.

Heç də təsadüfi deyil ki, 1970-ci illərin əvvəlində yaradılmış Azərbaycan SSR EA-nın Nəsimi adına Dilçilik İnstitutunun Türk dillərinin müqayisəli tədqiqi şöbəsinə Məmmədağa Şirəliyev, Vaqif Aslanov və Məhəbbət Mirzəliyeva kimi üç nəslin tanınmış alimləri rəhbərlik edib. Yaxın və uzaq xaricdə tanınan türkoloq-alimin misilsiz elmi-təşkilati bacarıqlarını nəzərə alaraq, AMEA-nın Rəyasət Heyəti 2014-cü ilin yanvarında Məhəbbət Mirzəliyevanı Nəsimi adına Dilçilik İnstitutunun direktor müavini vəzifəsinə təyin etmişdir.

M.Mirzəliyeva 100-ə yaxın dəyərli elmi məqalə və monoqrafiyanın müəllifi və ortaq müəllifidir. Bunlar "Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası" *(II hissə. Morfologiya, 1986)*, "Türk dilləri frazeologiyasının nəzəri problemləri" *(1995)*, "Oğuz qrupu türk dillərinin qrammatikası" *(III hissə. Sintaksis, kollektiv monoqrafiya. "Sintaktik əlaqələr" bəhsinin müəllifi, 2002)*, "Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri" *(kollektiv monoqrafiya, I cild, 2004, "Məna növ şəkilçili bəzi feillərin etimoloji təhlili", "Dilin lüğət tərkibi. Təşəkkül, inkişaf və təkmilləşmə (mülahizə və düşüncələr)" bəhslərinin müəllifi)*, "Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri" *(kollektiv monoqrafiya, II cild, 2008, "Dilin leksikasının tədqiqi dilin təşəkkül və inkişaf tarixinə yol açmaqdır" ön sözünün müəllifi)*, "Türk dillərinin frazeologiyası" *(3 cilddə, I cild, 2009, "Türk dilləri frazeologiyasının nəzəri problemləri", "Karluq qrupu türk dillərinin frazeologiyasına dair")* və s. əsərlərdir.

M.Mirzəliyeva 2005-ci ildə Akademiyanın 60 illik yubileyi, 2009-cu ildə isə anadan olmasının 60 illiyi münasibətilə AMEA-nın Fəxri fərmanına layiq görülmüşdür. M.Mirzəliyeva bir çox yerli və beynəlxalq elmi forumlarda, o cümlədən Ankara (2008), Pekin (2008), İzmir (2010 mart və dekabr), Tekirdağ (2010), Ədirnə (2011) və İstanbulda (2012) keçirilən beynəlxalq simpozium və konfranslarda məruzələrlə çıxış etmişdir.

Üç il əvvəl vəfat edən mərhum alim, dəyərli insan Məhəbbət Mirzəliyeva yaşasaydı, bu il 70 yaşı tamam olacaqdı. Bu gün professor Məhəbbət Mirzəliyevanın ardıcılları onun qoyub getdiyi irsi uğurla davam etdirir, onun adını daima yaşadır və uca tuturlar.

*Aydın Ələkbərov*
*Kamilə Vəliyeva*
*Elçin İbrahimov*